Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Milli dövlətçilik tariximizin parlaq siması

## Fətəli Xan Xoyski Azərbaycanın müstəqilliyi, bütövlüyü məsələsində qətiyyətli mübarizəsi ilə yaddaşlarda qalıb

**Milli istiqlal ideyaları ilə yaşayıb-yaradan ziyalılar xalqın döyünən qəlbi, düşünən beyni, milli yaddaşın, milli ruhun daşıyıcısı kimi tarixi funksiyanı həmişə ləyaqətlə yerinə yetirmişlər. Xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun yaradılmasında böyük xidmətlər göstərmiş şəxsiyyətlərdən biri də görkəmli ictimai-siyasi xadim, istiqlal mübadiləmizin parlaq siması Fətəli Xan Xoyskidir.**

Hər şeydən əvvəl, xalq üçün çalışmaq, milli müstəqilliyin, dövlətçiliyin qurulmasına xidmət etmək, millətin gələcək inkişafı naminə yorulmadan, əzmlə fəaliyyət göstərmək görkəmli şəxsiyyətin həyat amalına, məqsədinə çevrilmişdi. Bu amal, qayə isə öz növbəsində, onun mənəvi dünyasından, vətən eşqindən qaynaqlanırdı. Təkcə türk xalqları içərisində deyil, ümumən müsəlman dünyasında ilk demokratik, parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyətinin məhək daşını qoyanlardan biri, milli hökumətin ilk qurucusu Fətəli Xan Xoyskinin çətin, keşməkeşli, lakin şərəfli həyatı, xalqın milli istiqlal mübarizəsinə həsr edilmiş bütöv ömür yolu tariximizin şanlı səhifəsini təşkil edir.

Fətəli Xan Xoyski ictimai mənşə etibarilə Cənubi Azərbaycanın Xoy şəhərindən olub, sonralar Şimali Azərbaycana - Şəkiyə köç etmiş məşhur xoyskilər nəslinə mənsubdur. Atası İsgəndər xan rus ordusunun general-leytenantı olmuş, babası İsmayıl xan Xoyski və ulu babası vaxtilə Xoy xanı olan Cəfərqulu xan Şəki xanlığına rəhbərlik etmişlər. İbtidai təhsilini Şəki şəhərində alan Fətəli xan Gəncədə klassik gimnaziya təhsili görmüş, sonradan isə Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Hələ tələbəlik illərində gənclər hərəkatına qoşulan Xoyski çar Rusiyasının xalqlar arasında apardığı ikili siyasətin, ayrı-seçkiliyin şahidi olur. Bu ədalətsizlik, siyasi diskriminasiya sonralar onun milli istiqlal amalının, mücadiləsinin rüşeyminə çevrilir. O, Moskva Universitetini təkcə hüquqşünas kimi deyil, eyni zamanda dünyagörüşlü bir siyasətçi kimi başa vurur. Əvvəlcə Gəncə, sonralar Suxumi, Batumi, Kutaisidə ədliyyə sistemində, Yekaterinodar dairə məhkəməsində prokuror müavini vəzifəsində çalışmaqla yanaşı, ictimai-siyasi fəaliyyətini də davam etdirir. Peşə fəaliyyəti dövründə humanizmi, xeyirxahlığı, həmçinin prinsipiallığı, qətiyyəti ilə Qafqaz müsəlmanlarının, Azərbaycan türklərinin böyük etimadını qazanan Fətəli xan Gəncə quberniyasından 2-ci Dövlət Dumasına deputat seçilir.

Fətəli xan Xoyskinin bioqrafiyasında 2-ci Dövlət Dumasının deputatı kimi fəaliyyəti xüsusi mərhələ təşkil edir. Rusiya parlamentinin iclaslarında siyasi və iqtisadi tələblərlə çıxış edən cəsarətli millət vəkili çar hökumətinin Zaqafqaziyada, o cümlədən Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini kəskin tənqid edir, hökumətdən Rusiyanın müstəmləkəsindəki xalqlara milli-mədəni muxtariyyət verilməsini tələb edirdi. Torpaqların kəndlilərə paylanması, müsəlmanların azad və hüquq bərabərliyi haqlarının tanınması, onların dilinə və dininə hörmət, 8 saatlıq iş gününə keçilməsi, cümə gününün müsəlman fəhlələri üçün istirahət günü elan edilməsi və s. məsələlər də Fətəli xan Xoyskinin toxunduğu problemlər sırasında idi.



1913-cü ildən başlayaraq Bakı şəhər məhkəməsində andçı - müvəkkil vəzifəsini icra edən Xoyskinin fəal vətəndaşlıq mövqeyi sosial statusunu müəyyənləşdirmişdi. O, Bakı Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmiş, Qafqaz müsəlmanlarının Bakı qurultayının təşkilatçısı və iştirakçısı kimi fəallıq göstərmişdir.

1917-ci il fevral inqilabı, Rusiyada çarizmin devrilməsi ilə imperiya əsarətində olan xalqların, o cümlədən Cənubi Qafqaz xalqlarının milli oyanış dövrü başlayır. Belə bir şəraitdə heç bir partiya mənsubiyyəti olmayan, Vətən və millət mənafeyini özü üçün müqəddəs amala çevirən Fətəli xan Zaqafqaziya Seyminin üzvü və müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində nazir vəzifəsini tutmuşdur.

Fətəli xan Xoyskinin Azərbaycan tarixinə töhfələrindən, millət qarşısında xüsusi xidmətlərindən biri də ordu quruculuğu sahəsindədir. Bu illərdə məhz Fətəli xan Xoyski Zaqafqaziya komissarlığının rəhbərliyi qarşısında nizami Azərbaycan ordusunun yaradılması haqqında məsələ qaldırmış və komissarlığın sədri Y.P.Gegeçkori tərəfindən imzalanmış "Zaqafqaziya Müsəlman ordusu təşkil etmək haqqında" qətnaməyə əsasən, ordunun təşkil olunmasına rəhbərlik etmişdir. Uzaqgörən siyasətçi bilirdi ki, nizami ordunun yaradılması milli müstəqilliyə gedən yol, dövlətçiliyin təməl daşıdır.

Azərbaycanda ibtidai və ali məktəblərin açılması yönündə təşəbbüsü və səyləri də Fətəli xan Xoyskinin fəaliyyətində parlaq səhifələrdən birini təşkil edir. Zaqafqaziyanın maarif naziri olduğu zaman Fətəli xan Tiflisdə yaradılması qərarlaşdırılan Avropa tipli universitetin Bakıda açılması təklifini irəli sürmüş, sonralar bu təşəbbüs Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda təkcə Azərbaycanın deyil, müsəlman Şərqinin ilk universitetinin açılmasında mühüm rol oynamışdır.

Fətəli xan Xoyskinin siyasi həyatının mühüm bir dövrünü Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyəti təşkil edir. Azərbaycanın istiqlalı haqqında Əqdə imza atan, ilk və ümumilikdə isə üç ardıcıl hökumətin təşkilatçısı olan Fətəli xan Xoyskinin dövlətçilik fəaliyyəti türk dünyasında, eyni zamanda bütün müsəlman aləmində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin salnaməsini təşkil edir.

Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri dövründə müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Respublikasının pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər həyata keçirilmişdir.

Xarici işlər naziri vəzifəsini icra edən Fətəli xan Xoyskinin Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə və xarici dövlətlər tərəfindən tanınmasında da xidmətləri olmuşdur. Xoyskinin bu vəzifədə fəaliyyəti Azərbaycan dövlətçiliyinin müdafiəsi baxımından şərəfli tarixdir. Azərbaycan dövlətçiliyinin müqəddəratı ilə bağlı strateji qərarların qəbul edilməsində prinsipial mövqe nümayiş etdirən Fətəli xan Osmanlı dövlətinin yeganə beynəlxalq müttəfiqi olmasına baxmayaraq, türk komandanlığının Azərbaycanın daxili işlərinə qarışmasına qarşı etirazını bildirmiş, dövlətin müstəqilliyini qorumağı prioritet vəzifə hesab etmişdir. Eynilə bu cür barışmaz mövqedən çıxış edərək kəskin şəkildə ağ qvardiyalı general Denikinin və Bakıdakı erməni quldurlarının əməllərinə göz yuman ingilis generalı Tomsona müraciət ünvanlamışdı. Xüsusilə, Tomsonla söhbəti əsnasında Naxçıvanın Ermənistana verilməsi cəhdlərinin, ermənilərin Qarabağla bağlı ərazi iddialarının gerçəkləşməsinə yol verməyəcəklərini bəyan etmişdi. O, RSFSR-in Xarici İşlər üzrə xalq komissarı G.V.Çiçerinin iddialı notalarına tutarlı cavab verərək Sovet Rusiyası hökumətinə qətiyyətli mövqe bildirmişdir. Göründüyü kimi, Fətəli xan Xoyski Azərbaycanın müstəqilliyi, dövlətin bölünməzliyi məsələsində prinsipiallığını, cəsarətini ortaya qoyaraq vətən sevgisindən qaynaqlanan əzmlə, qətiyyətlə mübarizə aparmışdır.

Fətəli xan Xoyski Azərbaycanın müstəqilliyinin Paris Sülh Konfransında tanınması xəbərini parlamentdə xəbər verərkən sevinc və qürur hissini aşağıdakı sözlərlə ifadə etmişdir: "Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman hökumət başında mən idim. Və indi də təsdiqini sizə mən elan edirəm".

Çox təəssüf ki, bu sevinc uzun sürmədi, Rusiya imperialist mövqeyini göstərdi, Azərbaycan işğal olundu, Xalq Cümhuriyyəti süqut etdi.

Azərbaycan istiqlalının işğalından sonra vətəni tərk etmək məcburiyyətində qalan Fətəli xan Xoyski Tiflis şəhərində erməni terrorçuları tərəfindən qətlə yetirilmiş və orada müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

M.Ə.Rəsulzadə yaxın dostu və məsləkdaşı haqqında sonralar yazırdı: "Fətəli xan Azərbaycan tarixinin təşəkkülündə mühüm rol oynamış simalardandır, cümhuriyyətin bolşeviklər tərəfindən istilası zamanı Tiflisə iltica eyləmiş, burada Azərbaycan davasını idarə etməkdə ikən xain bir qurşun qiymətdar həyatına faciəli bir surətdə xitam vermişdir. Fətəli xanın bu surətlə həyat səhnəsindən çəkilməsi Azərbaycan istiqlalının həsrəti ilə dağıdar olan könüllərdə silinməz bir təsir buraxmışdır".

Fətəli xan Xoyski şərəfli həyatı, ictimai-siyasi fəaliyyəti, milli-istiqlal mücadiləsi ilə Azərbaycan xalqının taleyinin bir parçası, məhz bu gün də qürurla xatırladığımız tarixi şəxsiyyətlərdəndir. Onun milli dövlət quruculuğu və müstəqilliyimizin qorunması istiqamətində diplomatik səyləri, gərgin mübarizəsi, hökumət idarəçiliyi sahəsindəki təcrübəsi, dövlətçilik konsepsiyası bu gün və hər zaman Azərbaycan tarixinin parlaq səhifələri olaraq yad ediləcək.

**Leyla RƏŞİD, Bakı Dövlət Universitetinin doktorantı**